**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA SIĞORTA SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5301.01 - Daxili fiskal siyasət və dövlət maliyyəsi

Elm sahəsi: 53 - İqtisad elmləri

**İddiaçı: Heydər Rəşid oğlu Ağayev**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın
**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Maliyyə və bank işi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor,
Əməkdar elm xadimi
**Bəyalı Xanalı oğlu Ataşov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, dosent
**Saleh Məmmədəli oğlu Məmmədov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**İsmayıl Cəfər oğlu Həsənov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**İsgəndər Valeh oğlu Babazadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ iqtisad elmləri doktoru, professor
*imza* **Yaşar Atakişi oğlu Kəlbiyev**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad elmləri üzrə fəlsəfə doktoru
*imza* **Suqra İnqilab qızı Hümbətova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, professor
*imza* **Zahid Fərrux oğlu Məmmədov**

ÜMUMİ ŞÖBƏ

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Müasir qlobal risklərin və təhdidlərin artması ilə bağlı olaraq, bazar iqtisadiyyatı mexanizmlərinin maksimum təkmilləşdirildiyi bir dövrdə sığorta sisteminin işləkliyinin gücləndirilməsi və maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi prioritetləri konteksində zəruri tədbirlərin görülməsi, sığorta şirkətlərinin fəallığının artırılması və bazara çıxardıqları sığorta xidmətlərinin keyfiyyətlərinin yüksəldilməsi, bu xidmətlərdən daha çox maraqlı olan müştərilərin – fiziki və hüquqi şəxslərin əlçatan səviyyədə istifadə etməsi tədbirlərinə daha çox ehtiyac vardır.

Sığorta sisteminin iqtisadiyyatda rolundan danışarkən müxtəlif iqtisadiyyat sahələrinin qarşısında duran strateji vəzifələrin yerinə yetirilməsi ilə bağlı hədəflərin nə dərəcədə vacib olması və maliyyə tutumunun dəyərləndirilməsi, bunlarla bağlı risklərin diqqətlə öyrənilməsi və qiymətləndirilməsi kompleks və sistemli yanaşmanı şərtləndirir. Yəni sığorta bir iqtisadi element kimi bu proseslərin içərisindədir və həmin proseslərin iştirakçısıdır, onun obyektiv olaraq dəyərləndirilməsi və nəzərə alınması vacibdir. Sığortanı bu sırada xarakterizə edən əlamətlər sırasında əsas yeri risklərin xəbərdar olunması və ortaya çıxa biləcək itkilərin qiymətləndirilməsi, bunlarla bağlı münasibətlərin və öhdəliklərin sığorta müqaviləsində obyektiv olaraq nəzərə alınmasından ibarətdir. Sığorta həm də yığım funksiyasını yerinə yetirir, belə ki, sığorta haqlarının müəyyən hissəsi yığım formasında ehtiyat fond və maliyyə resursları kimi toplanır, müəyyən müddətdən sonra isə hər hansı bir layihənin və yaxud maliyyə sabitliyinin gücləndirilməsi ilə bağlı tədbirlərin reallaşdırılmasına, əksər hallarda isə investisiya kimi yatırılmasına yönələ bilər.

Qeyd edək ki, son illərdə dünya sığorta bazarının inkişafının intensivləşdirilməsində bir qrup ölkələr, o cümlədən daha kəskin formada ABŞ və Çin arasında rəqabət dərinləşməkdədir. 2021-ci ildə sığorta fəaliyyəti nəticəsində ümumdünya ÜDM-nin 5,8%-i formalaşmışdır. Analoji artım tendensiyası sığorta ödənişlərində də özünü göstərmişdir və 2021-ci il ərzində bu göstərici üzrə artım 3,3% və ya 6,9 trln. ABŞ dolları təşkil etmişdir. 2020-2021-ci illərdə sığorta ödənişlərinin artımının əsas səbəblərindən biri kimi COVİD-19 pandemiyasının

olduğunu qeyd edə bilərik və bu obyektiv xarakter daşıyır. Amma, hesab edirik ki, bu faktlar və amillər pospandemiya dövründə də sığorta bazarının inkişafına və sığorta fəaliyyəti ilə bağlı mövcud mexanizmlərinin təkmilləşdirilməsinə, o cümlədən sığorta haqları və sığorta ödənişləri arasındakı qeyri-mütənasibliyin aradan qaldırılmasında önəmli addımların atılması üçün əsaslar formalaşdırmaqdadır.

Bir qrup postsovet respublikalarında sığorta bazarının əsas göstəricilərinin qısa məzmununu da nəzərə çatdırmaq istərdik. Belə ki, Rusiyada sığorta şirkətlərinin aktivləri 40 mlrd. dollar səviyyəsindədir, Qazaxıstanda bu göstərici 2,8 mlrd. dollar, Belarusda isə 1,6 mlrd. dollar təşkil edir. Sığorta ödənişlərinin həcmi baxımından, Rusiyada bu göstərici 22 mlrd. dollara yaxın, Qazaxıstanda 1,2 mlrd. və Belarusda 544 mln. dollar səviyyəsindədir. Daha obyektiv təsəvvür formalaşdırmaq üçün qeyd edək ki, Azərbaycanda 2022-ci ilin yekununda sığorta şirkətlərinin aktivlərinin ümumi həcmi 1633,4 mln. dollar, sığorta ödənişlərinin 442.1 mln. dollar səviyyəsində qeydə alınmışdır. Hesab edirik ki, bu müqayisələrdən yanaşsaq, ölkəmizin sığorta sisteminin müasir dövrün tələbləri səviyyəsində daha dərindən təkmilləşdirilməsi və mütərəqqi dünya təcrübəsindən istifadənin sürətləndirilməsi, eyni zamanda sığorta bazarının fəallığının artırılması tədbirlərinin genişləndirilməsinə ciddi zərurət vardır.

Sığorta xidmətləri ölkənin maliyyə bazarının intensivliyində xüsusi əhəmiyyət kəsb edir və həm də vacib bazar seqmenti kimi qiymətləndirilir. Bu məsələlər Azərbaycan üçün də vacib əhəmiyyət kəsb edir və təsadüfi deyildir ki, son on il ərzində sığorta sisteminin inkişafının təmin olunması, sığorta mexanizmlərinin təkmilləşdirilməsi və sığorta şirkətlərinin fəallığının artırılması üçün davamlı tədbirlər görülmüş, ümumilikdə sığorta sisteminin fəaliyyətinin maksimum gücləndirilməsi, həmçinin sığorta xidmətlərinin çeşidinin diversifikasiyalaşdırılması üzrə strateji yanaşmalar formalaşdırılmış və sığorta bazarının inkişafında dinamikliyə nail olunmuşdur. Amma, obyektiv yanaşmanı ortaya qoysaq, görərik ki, ölkəmizdə sığorta bazarının intensiv inkişafı icbari sığorta formasının genişləndirilməsi hesabına baş vermişdir. Belə ki, daha çox sığorta haqlarının toplanması ilk növbdə icbari sığorta növləri üzrə müqavilələrin reallaşdırılmasından asılıdır. Son illərdə bir sıra icbari sığorta növlərinin sığorta bazarına

çıxarılması, o cümlədən icbari tibbi sığorta sisteminin tətbiq edilməsi bu prosesləri əhəmiyyətli səviyyədə intensivləşdirmişdir.

Müasir dövrdə ölkəmizdə sığorta sisteminin inkişafı, yenilənməsi, sığorta qanunvericiliyinin təkmilləşdirilməsi, bu sahədə olan problemlərin həlli yollarının müəyyənləşdirilməsi üzrə diskussiyaların artması və s. bu kimi məsələləri fərqləndirmək olar. Əslində bütün bunlar iqtisadi və tarixi qanunauyğunluqların məntiqi nəticələri kimi də baxıla bilər. Digər tərəfdən, sığorta sistemində olan və həll edilməyən problemlərin diqqətdən kənarda qalmasına yol verilməməli, cəmiyyət və iqtisadiyyat üçün önəmli olan sığorta xidmətlərinin işlək mexanizmləri hazırlanmalı və tətbiq olunmalıdır. Bu qəbildən olan problemlər icbari və könüllü sığorta növlərinin əhəmiyyətli hissəsini əhatə edir. Məsələn, daşınmaz əmlak üzrə sığorta fəaliyyətinin intensivləşdirilməsində bu sahədəki informasiya bazasının hələ də qeyri-təkmilliyi mane yaradan amillərdəndir. Eyni zamanda, sığorta hadisələri ilə bağlı məsələlərin baxılmasında müstəqil və qərəzsiz sığorta ekspertinin təmin olunmaması problemi də diqqət çəkir və paradoks ondadır ki, hazırda bu funksiyaları əsasən sığorta müqaviləsinin bir tərəfdaşı kimi sığorta şirkətlərinin əməkdaşları və ya onlarla bağlı sığorta ekspertləri həyata keçirir.

Son 15 il ərzində Azərbaycanda sığorta fəaliyyətinin maksimum təkmilləşdirilməsi və tənzimlənməsi, qanunvericilik bazasının gücləndirilməsi tədbirləri diqqət çəkir. 25 dekabr 2007-ci ildə "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olunmuşdur. Bundan əlavə, 24 iyun 2011-ci ildən digər mühüm bir ölkə qanunu – "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının qanunu qüvvəyə minmişdir. Aqrar sektorda sahibkarlığın inkişaf etdirilməsi və fəaliyyətin daha ehtibarlı təşkili məqsədilə 27 iyun 2019-cu ildə qəbul olunan "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu kifayət qədər mütərəqqi və stimullaşdırıcı hesab oluna bilər. Sığorta xidmətlərinin təkmilləşdirilməsi, əlçatanlığı baxımından ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin böyük əhəmiyyəti vardır və bu mühüm sənəddə maliyyə xidmətləri bazarının inkişafı konteksində sığorta fəaliyyətinə xüsusi önəm verilmişdir. Eyni zamanda, ölkə

Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də milli iqtisadiyyatın inkişafı proseslərində, hüquqi və fiziki şəxslərin maraqlarının təmin olunmasında, əmlaklarının və sağlamlıqlarının qorunmasında sığorta fəaliyyətinin təkmilləşdirilməsi vacib məsələlərdən biri kimi xarakrterizə olunur.

Bunlarla bərabər, son illərdə qlobal səviyyədə sürətlə artan problemlər və risklər, maliyyə bazarlarına yönəlik olan təhdidlər daha çevik və səmərəli tədbirlərin və mexanizmlərin hazırlanmasını zəruri edir. Müasir sığorta sistemi və tətbiq olunan sığorta mexanizmləri əsas etibarı ilə müştəri məmnunluğuna gətirib çıxarmamışdır və təkcə elə bu amilin özü mövcud sığorta mexanizmlərinin yenilənməsini və ya əhəmiyyətli səviyyədə təkmilləşdirilməsini şərtləndirir. Həmçinin, 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın azad olunması, bu ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, sıfırdan başlayaraq geniş həcmli quruculuq və dirçəliş işlərinin başlanılması, müasir texnologiyalar əsaslı layihələrin həyata keçirilməsi yeni və çevik maliyyə mexanizmlərinin, o cümlədən sığorta mexanizminin işlənməsini və tətbiqini zəruri etmişdir.

Bütün bunlar fundamental araşdırmaları ön plana çıxarır və sığorta sisteminin müasir dövrün çağırışlarına uyğun təkmilləşdirilməsini, maksimum işlək fəaliyyət mexanizmlərinin hazırlanmasını və bu sahədə mühüm məsələlərin tənzimlənməsi problemlərini dərindən araşdırmağı, daha uyğun və səmərəli olaraq həlli yollarının müəyyənləşdirilməsini tələb edir. Bu qeyd olunanlar dissertasiya işinin mövzusunun aktuallığını ifadə edir.

Mövzunun işlənmə dərəcəsi ilə əlaqədar qeyd etmək olar ki, sığorta sisteminin inkişaf etdirilməsi ilə bağlı nəzəri-metodoloji məsələlər, sığortanın iqtisadiyyatda rolu və Azərbaycanda sığorta sisteminin təkmilləşdirilməsi problemləri ilə ölkəmizin və xarici ölkələrin alimləri məşğul olmuş, elmi əsərlər yazmışlar. Azərbaycanlı iqtisadçı-alimlərdən akademik Z.Ə.Səmədzadə, A.F.Musayev, E.A.Quliyev, B.X.Ataşov, Ə.Ə.Ələkbərov, N.N.Xudiyev, E.R.İbrahimov, M.C.Hüseynov, A.Ş.Şəkərəliyev, Z.F.Məmmədov, İ.H.İbrahimov, B.A.Xankişiyev, K.M.İbrahimov və başqalarını qeyd etmək olar.

Xarici ölkə alim və tədqiqatçılarından – P.E.Samuelson,

V.D.Nordxaus, N.Q.Adamçuk, L.İ.Tsvetkova, V.V.Barabanova, T.E.Qvarliani, K.P.Kosminskiy, Y.Q.Knyazeva, Y.A.Razumovskaya, L.Q.Skamay, D.S.Sokolov, Y.A.Tarasova, A.İ.Xudyakov, M.C.Christiansem, L.F.B.Henriksen, K.J.Schomacker, M.Steffensen, S.L.Kimball, C.Laux, A.Muermann, P.M.Lencsis, M.A.Weiss və digərlərinin elmi əsərlərində sığorta sisteminin inkişaf prosesləri, maliyyə bazarlarının intensivliyinin artırılmasında sığorta bazarının rolu və əhəmiyyəti, sığorta fəaliyyətinin səmərəlilik problemləri və mövcud sığorta mexanizmlərin təkmilləşdirilməsi məsələləri tədqiq olunmuş, fikirlər və mülahizələr irəli sürülmüşdür.

Bunlarla belə, qlobal təhdidlər şəraitində sığorta sisteminin maksimum təkmilləşdirilməsi, daha təsirli tənzimləmə mexanizmlərin işlənməsi və tətbiq olunması, sığorta xidmətlərinin cəlbediciliyinin və əlçatanlığının artırılması problemlərinin fundamental şəkildə araşdırılmasına və həlli yollarının müəyyənləşdirilməsinə zərurət vardır.

**Tədqiqatın obyekti** Azərbaycan sığorta sistemi, bütövlükdə ölkədə bu sistemin fəaliyyət sferası, sığorta fəaliyyəti, sığorta bazarı və bunlarla bağlı olan fəaliyyət sahələri, subyektlər və təşkilatlardır.

**Tədqiqatın predmeti** isə Azərbaycan Respublikasında sığorta sisteminin təkmilləşdirilməsi, bununla əlaqəli mövcud fəaliyyət mexanizmlərinin tənzimlənməsi istiqamətləri, üsul və vasitələridir**.**

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi Azərbaycan Respublikasında sığorta sisteminin təkmilləşdirilməsi, bunun üçün hazırda mövcud olan sığorta fəaliyyəti mexanizmlərinin müasir dövrün çağırışlarına uyğun şəkildə tənzimlənməsi, elmi-nəzəri və praktiki cəhətdən əsaslandırılmış təkliflər hazırlamaqdır. Bundan ötrü aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və dissertasiyanın strukturuna uyğun olaraq yerinə yetirilmişdir:

– sığorta sisteminin inkişaf probleminə nəzəri yanaşmaların tədqiq olunması və müasir dövrün tələblərinə uyğun olaraq ümumiləşdirilməsi;

– sığorta sisteminin təkimilləşdirilməsi istiqamətində metodoloji xüsusiyyətlərin müəyyənləşdirilməsi;

– iqtisadi islahatlar və iqtisadi inkişaf proseslərinin sürətləndirilməsində sığorta sistemindən məhsuldar istifadə üzrə beynəlxalq təcrübənin öyrənilməsi;

– Azərbaycanda sığorta sisteminin hazırkı vəziyyətinin obyektiv təhlilinin aparılması;

– maliyyə xidmətləri bazarının inkişafı kontekstində ölkəmizin sığorta sisteminin səmərəliliyinin tədqiqi

– Azərbaycanda iqtisadi islahatların intensiv fazasında sığortanın multiplikativ təsirinin araşdırılması və qiymətləndirilməsi;

– ölkəmizdə sığorta sisteminin qanunvericilik bazasının adekvatlığının araşdırılması;

– Azərbaycanda sığorta şirkətlərinin fəallığının artırılmasını şərtləndirən amillərin və istiqamətlərin müəyyənləşdirilməsi;

– işğaldan azad olunmuş ərazilərin potensialı, həmçinin postpandemiya çağırışları nəzərə alınmaqla, ölkəmizin sığorta sisteminin təkmilləşdirilməsi yollarının müəyyənləşdirilməsi və s.

**Tədqiqat metodları.** Tədqiqatın gedişində işin strukturuna uyğun olaraq qoyulan problemlərin komplekslilik prinsipi əsasında araşdırılmasına üstünlük verilmiş və sistemlilik yanaşması qorunmuşdur. Bundan əlavə, analiz və sintez metodlarından, dinamika sıralarının təhlilindən, analitik-hesablama metodundan, həmçinin iqtisadi təhlilin müasir üsul və vasitələrindən istifadə edilmişdir. Nəzəri-metodoloji yanaşmalar kimi sığorta sisteminin mövcud mexanizmlərinin tənzimlənməsi üzrə Azərbaycan və xarici ölkə alimlərinin əsərlərində yer almış yanaşmalar diqqət mərkəzində saxlanılmış və istifadə olunmuşdur. Eyni zamanda, tədqiqat işinin gedişində Azərbaycanda sığorta sisteminin və sığorta fəaliyyətinin tənzimlənməsinə dair qanunlardan və normativ-hüquqi sənədlərdən, bunlarla bərabər ixtisaslaşdırılmış elmi-tədqiqat institutlarının və mərkəzlərinin metodoloji materiallarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar** bunlardan ibarətdir:

– qlobal risklər və təhdidlərlə bağlı olaraq müasir dünya maliyyə bazarının əsas seqmentlərindən biri olan sığorta bazarının, ölkələrin sığorta sisteminin ciddi şəkildə təkmilləşdirlməsinə ciddi ehtiyac yaranmışdır;

– sığorta sisteminin nəzəri-metodoloji xüsusiyyətlərinə müasir yanaşmaların ortaya qoyulmasına zərurət yaranmışdır;

– sığorta sisteminin təkmilləşdirilməsində beynəlxalq təcrübədə sınaqdan çıxmış sığorta mexanizmlərindən ölkənin sığorta sisteminin

inkişaf prioritetlərinə uyğun şəkildə istifadə olunması tədbirlərinin görülməsi qaçılmaz proses kimi diqqət çəkir;

– Azərbaycanın sığorta sisteminin mövcud vəziyyətinin dərindən araşdırılması, bu sistemin inkişafına mane olan problemlərin açıqlanması və qeyd olunan istiqamətlər üzrə fundamental araşdırmaların təşkili tələb olunur;

– Azərbaycanda maliyyə xidmətləri bazarının strateji inkişaf hədəfləri kontekstində sığorta sisteminin səmərəliliyinin yüksəldilməsində və sığorta fəaliyyətinin genişləndirilməsində istifadə edilməmiş potensial var;

– ölkəmizdə iqtisadi islahatların intensivliyinin artırılması üçün sığortanın multiplikativ təsirinin obyektiv qiymətləndirilməsinə ehtiyac yaranmışdır;

– sığorta sisteminin inkişafında və sığorta fəaliyyətinin səmərəliliyinin artırılmasında qanunvericilik bazasının təkmilləşdirilməsi, mövcud qanunlardakı, hüquqi aktlardakı boşluqların aradan qaldırılması səmərə verə bilər;

– Azərbaycanda sığorta fəaliyyəti subyektlərinin çevik və əlçatan, cəlbedici sığorta xidmətlərinin formalaşdırması və sığorta bazarına çıxarılması mühüm trend kimi tələb olunur;

– işğaldan azad olunmuş ərazilər və postpandemiya çağırışları əsas götürülməklə, ölkəmizin sığorta sisteminin optimallaşdırılması və təkmilləşdirilməsi probleminin həlli yollarının müəyyənləşdirilməsi vacibdir və s.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

– qlobal təhdidlər və risklərdən çıxış etməklə, müasir dövrdə sığorta sisteminin inkişaf etdirilməsinə nəzəri yanaşmalar müəyyənləşdirilmiş, sığorta sisteminin inkişafını əngəlləyən problemlər açıqlanmış və mövcud sığorta sistemi mexanizmlərinin əhəmiyyətli səviyyədə təkmilləşdirilməsinin vacibliyi əsaslandırılmışdır;

– sığorta sisteminin inkişaf etdirilməsi prioritetlərindən və sığorta fəaliyyətinin xüsusiyyətlərindən yanaşmaqla, cəmiyyətin və iqtisadiyyatın müxtəlif sahələrində sığortanın daha çox diqqət çəkən anlayışlarının blok-sxemi hazırlanmışdır;

– sığorta sisteminin mövcud mexanizmlərinə və praktiki fəaliyyət alətlərinə beynəlxalq standartlar çərçivəsində olan tələblər və

Solvency II Direktivinin üç mühüm şərtləri kontekstində sığorta sisteminin təkmilləşdirilməsinin metodoloji bazası işlənmişdir;

– 2022-ci ilin məlumatları üzrə Azərbaycanın 20 sığorta şirkətinin sığorta haqlarının faktiki məbləğlərindən və sığorta bazarında tutduğu mövqedən yanaşmaqla, Herfindahl-Hirschman Əmsalının metodikasına əsasən hesablama aparılmış və alınan faktiki nəticəyə görə (2254,4) sığorta bazarında rəqabət mühiti kifayət qədər inkişaf etməmişdir və bu bazarın subyektlərinin rəqabət qabiliyyətinə inhisarçılıq təsir edir;

– Azərbaycanın maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi kontekstində sığorta sisteminin səmərəlilik göstəricisi toplusu işlənilmiş və onların üç variant üzrə səmərəlilik dərəcəsinin qiymətləndirilməsi metodikası hazırlanmışdır;

– sığorta sisteminin prioritet vəzifələrinə və sığorta bazarının inkişaf drayverlərinə uyğun olaraq, sığorta fəaliyyətinin iqtisadi islahatların və iqtisadi inkişaf proseslərinin sürətləndirilməsinə təsir edən amillərin blok-sxemi işlənmişdir;

– sığorta şirkətlərinin dayanıqlılığının artırılması və onların maliyyə sabitliyinin təmin edilməsini özündə əks etdirən sığorta şirkətlərinin mühüm maliyyə və xərc mənbələri müəyyənləşdirilmiş və sistemləşdirilmişdir;

– qlobal risklər və təhdidlər şəraitində sığorta şirkətlərinin fəallığının gücləndirilməsinin strateji istiqamətləri verilmiş və risk-menecmentin peşəkar səviyyədə təşkil olunmasının vacibliyi əsaslandırılmışdır;

– postpandemiya dövründə sığorta sisteminin təkmilləşdirilməsinin obyektiv zərurət kimi olması əsaslandırılmış və sığorta xidmətləri portfelinin diversifikasiyalaşdırılması problemlərinin həlli yolları işlənmişdir;

– işğaldan azad olunmuş ərazilərin bərpa edilməsi və dirçəldilməsi proseslərində sığorta sisteminin təkmilləşdirilməsi, sığorta xidmətlərinin cəlbediciliyinin artırılması və əlçatanlığının təmin olunması, təhlükəli risklərin sığortalanması üzrə yeni sığorta məhsulla-rının hazırlanması və tətbiqinin zəruriliyi əsaslanıdırılmışdır və s.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində əldə olunan elmi-praktiki nəticələrdən istifadə olunması, ümumilikdə

sığorta sisteminin qlobal çağırışlara və risklərə adekvat olaraq təkmilləşdirilməsinə, sığorta fəaliyyəti ilə bağlı hazırda istifadə olunan mövcud mexanizmlərin maksimum tənzimlənməsinə və yenilənməsinə, sığorta fəaliyyəti subyektlərinin səmərəliliyinin artırılmasına əlavə imkanlar yaratmaqda faydalı ola bilər. Bundan əlavə, tədqiqat işinin materiallarından ölkənin sığorta sisteminin fəaliyyətinin təkmilləşdirilməsi üzrə məqsədli proqramların, strategiyaların və konsepsiyaların işlənməsində, tədbirlərin həyata keçirilməsində istifadə olunmaq perspektivi vardır. Eyni zamanda, dissertasiyada verilmiş elmi-nəzəri müddəalardan dərsliklərin, dərs və metodiki vəsaitlərinin hazırlanmasında istifadə olunması mümkündür.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Azərbaycan Kooperasiya Universiteti "Maliyyə və bank işi" kafedrasının elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmaqla, müasir dövrdə aktual məsələlər kimi daimi fəaliyyət göstərən elmi seminarlarda müzakirə olunmuş və bəyənilmişdir.

Dissertasiya işinin mövzusu üzrə iddiaçının 11 məqalə və tezisi, o cümlədən 7 məqalə və 4 tezisi Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda dərc olunmuşdur. Tədqiqatın əsas müddəaları "Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri" mövzusunda Respublika elmi konfransda "Kiçik və orta sahibkarlığın inkişafında sığorta xidmətlərinin rolunun artırılımasının strateji əhəmiyyəti" adlı (25-26 aprel 2019-cu il), "İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər" mövzusunda beynəlxalq elmi konfransda "Azərbaycanda sığorta xidmətlərinin genişləndirilməsində xarici-iqtisadi əməkdaşlığın əhəmiyyəti" adlı (8-9 iyul 2020-ci il), "Azərbaycanın tranzit potensialının iqtisadi inkişafda rolu" mövzusunda Respublika elmi konfransda "Qeyri-neft sektorunun infrastrukturundan səmərəli istifadədə edilməsində sığorta sisteminin rolu" adlı (22-23 oktyabr 2020-ci il), Moskvada (Rusiya Federasiyası) 24 sentyabr 2021-ci ildə keçirilən IV Beynəlxalq elmi-praktiki konfransda «Современные проблемы цивилизации и устойчивого развития в информационном обществе» mövzusunda "Оценка эффективности системы страхования в Азербайджане в постпандемическом периоде" adlı tezisləri dərc olunmuşdur.

Bundan əlavə, iddiaçının "İqtisadi islahatlar şəraitində sığorta sisteminin təkmilləşdirilməsi problemləri və istiqamətləri" (2019), "Azərbaycanda iqtisadi islahatlar dövründə sığorta sisteminin inkişafının aktual problemləri" (2019), "Azərbaycanda iqtisadi islahatlar şəraitində sığorta sisteminin tənzimlənməsi və gücləndirilməsi məsələləri" (2020), "Aqrar sığorta münasibətlərinin inkişafı və sığorta şirkətlərinin fəallığının artırılması" (2021), "Postpandemiya dövründə və postkonflikt şəraitində sığorta fəaliyyətinin multiplikativ təsirinin qiymətləndirilməsi" (2021), "Azərbaycanda iqtisadi islahatlar şəraitində sığorta sisteminin inkişafının nəzəri-metodoloji aspektləri" (2021) və Rusiyanın Moskva şəhərində nəşr olunan "Maliyyə iqtisadiyyatı" jurnalında "Направления совершенствования системы страхования в Азербайджане в условиях интенсификации экономических реформ" (2021) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Giriş (19359 işarə), I fəsil (95292 işarə), II fəsil (57962 işarə), III fəsil (61839 işarə), nəticə (12780 işarə) ilə birlikdə dissertasiyanın ümumi həcmi 273659 işarədir. Cədvəllər, şəkillər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla dissertasiyanın işarə sayı 236431-dir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş**ində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi və s. verilmişdir.

Dissertasiyanın "**Sığorta sisteminin inkişaf etdirilməsinin nəzəri-metodoloji əsasları"** adlı **birinci fəsli**ndə sığorta sisteminin iqtisadiyyatda rolu və onun inkişaf etdirilməsinin nəzəri əsasları, müasir dövrdə sığorta sisteminin təkmilləşdirilməsinin metodoloji xüsusiyyətləri, iqtisadi islahatların sürətləndirilməsində sığorta sistemindən səmərəli istifadə üzrə dünya təcrübəsi araşdırılmışdır.

Sığorta fəaliyyəti və “sığorta” anlayışı qədim tarixə malikdir, belə bir xidmətin yaranması zərurətdən formalaşmış, insanların müəyyən sahələrdə üzləşdikləri problemlərlə, təhlükələrlə və itkilərlə bağlı olmuşdur. XII əsrdə İslandiyada dəniz daşımaları ilə bağlı ilk sığorta birliklərinin yaradılması və fəaliyyət göstərməsi məlumdur. XIII əsrdə insanlar arasında ictimai-iqtisadi münasibətlər sistemində zərərlərin bölüşdürülməsi ilə bağlı müəyyən yanaşmalar artıq diqqət çəkmişdir. XIV-XVIII əsrlərdə dəniz nəqliyyatının inkişafının tədricən genişlənməsi nəticəsində və bu nəqliyyat vasitəsindən istifadənin artması proseslərində yaranan təhlükələrdən sığortalanma müqavilələrindən istifadəyə başlanılmışdı. XVIII əsrin 50-ci illərindən etibarən Qərbi Avropa ölkələrində sənayenin və dənizçiliyin inkişafı ilə əlaqədar olaraq risklərin sığortalanması əməliyyatları həyata keçirilirdi[1]. XX əsrin 50-ci illərindən etibarən sığorta xidmətləri iqtisadiyyatın müxtəlif sahələrində, həmçinin cəmiyyətin əksər sahələrində tələb olunan xidəmət kimi diqqət mərkəzinə düşmüşdür. Məhz həmin dövrdən başlayaraq, sığorta xidmətinə münasibətlər daha geniş xarakter almış və müxtəlif sığorta növlərinin hazırlanması, tətbiq edilməsi prosesləri intensivləşmişdir. Son 20-30 il ərzində isə sığorta fəaliyyəti qlobal xarakter almış, bu sahədə təkmilləşdirilmiş mexanizmlər həyata keçirilmiş, yüksək texnologiyaların genişlənməsi, informasiya-kommunikasiya texnologiyalarının sürətlə iqtisadi inkişaf proseslərinə tətbiqi ilə bağlı sığorta xidmətlərinin strukturu xeyli dəyişmişdir. Elektron sığorta xidmətləri iqtisadiyyatın və cəmiyyətin bütün sahələrində geniş tələb olunan xidmət növü kimi özünü təsdiq etmişdir.

Ölkə səviyyəsində iqtisadi proseslərin etibarlılığının təmin olunması iqtisadi və sosial proseslər iştirakçılarının maraqlarının qorunması məqsədilə səmərəli müdafiə mexanizmi kimi sığorta xidmətləri vacibdir. Haqlı olaraq, professor, Əməkdar Elm Xadimi B.X.Ataşov və professorlar Ə.Ə.Ələkbərov, N.N.Xudiyev yazırlar: *“Yeni şərait-də sığorta seqmentinin təşkili prinsiplərində əsaslı dəyişikliklər edilməsi, sığorta bazarının strukturlaşdırılması, sığorta seqmentində inhisarın aradan qaldırılması, müştərilər arasında sığorta xidmətlərinin çeşidinin genişlənməsi və onun keyfiyyətinin əsaslı yüksəldilməsi*

[1] *Скамай, Л.Г. Страхование. Москва: Юрайт, 2018. – s.21.*

*mühüm əhəmiyyət daşıyır”*[2]. Bunlara rəğmən hesab edirik ki, ölkə iqtisadiyyatının müxtəlif sahələrində baş verən proseslərdə və aparılan iqtisadi islahatlarda sığorta sisteminin səmərəliliyinin təmin edilməsi problemləri müasir dövrdə kifayət qədər aktuallığı ilə diqqət çəkir. Sığorta sisteminin formalaşdırılması və sığorta növlərinin əhəmiyyətinin obyektiv olaraq dəyərləndirilməsi, sığorta xidmətləri paketinin hazırlanması, sığorta xidmətlərinə yanaşmaların formalaşdırılması proseslərində müasir dövrün reallıqlarından baxmaq daha düzgün olardı. Sığorta sisteminin formalaşdırılması və inkişaf etdirilməsində başlıca və əsas metodoloji yanaşmalar kimi bir çox amillər nəzərə alınmalıdır. Xüsusilə, bu sırada daha diqqət çəkən metodoloji prinsiplərə bunları aid etmək olar: *“1) sistemlilik prinsipinin qorunması; 2) komplekslilik; 3) optimallılıq; 4) səmərəlilik; 5) prioritetlik və balanslaşdırma; 6) obyektivlik və dinamiklilik; 7) risklərin uçotunun aparılması və idarəetmə mexanizmlərinin olması və s.”*[3]. Biz də hesab edirik ki, sığorta sisteminin metodoloji yanaşmalarında konkretlilik və tətbiq olunan mexanizmlərin istifadə qaydalarının aydınlığı, sadəliyi, bürokratiyadan uzaq olması vacib şərtlərdəndir. Belə olduğu təqdirdə sığorta xidmətlərdən fəal şəkildə istifadə edilməsi mühitinin formalaşdırılması mümkündür və sığorta xidmətləri əlçatanlığını təmin etmək olar.

Qeyd edək ki, müasir sığorta sisteminin və sığorta fəalyyətinin qlobal risklərdən və təhdidlərdən qorunmasında təkmilləşdirilmiş metodoloji yanaşmalar, prinsiplər və mexanizmlər diqqət çəkir. Məsələn, 2009-cu il 25 noyabr tarixində Avropa Parlamenti və Avropa İttifağı Şurasının Direktivi qəbul olunmuşdur[4]. Bu Direktivdə (Solvency II) aparıcı sığorta şirkətlərinin fəaliyyəti ilə bağlı əsas mexanizmlər və metodiki yanaşmalar yer almışdır. 2016-cı ildən başlayaraq, Solvency

---

[2] *Ataşov, B.X., Ələkbərov, Ə.Ə., Xudiyev, N.N. Sığorta işi. – Bakı: – 2018, “Kooperasiya” nəşriyyatı. – s. 12.*

[3]*Национальная страховая система / Е.Г. Князева, Е.А. Разумовская, Е.Ю. Половнёва, В.А. Шелякин; [под ред. Е.Г. Князевой; М-во науки и высш. образования РФ. –Екатеринбург: Изд-во Урал. ун-та, 2020. – s. 15*

[4]*Директива 20091138/ЕС Европейского Парламента и Совета Европейского союза от 25.11.2009 «Об организации и осуществлении деятельности страховых и перестраховочных организаций (Solvency II)» - http://www.cbr.ru/finmarkets/files/common/letters/2016/inf_sep_0816.pdf.*

II-nin mühüm müddəaları Avropa Birliyi ölkələrinin sığorta şirkətlərində metodiki göstəriş kimi qəbul olunmuş və həyata keçirilməkdədir və burada əsas məqsəd – riskyönlü yanaşmaların optimal olaraq müəyyənləşdirilməsidir[5]. Solvency II-nin tələb və prinsiplərinə baxdıqda görmək mümkündür ki, metodologiya baxımından sığorta fəaliyyəti subyektlərinin kapital səviyyəsi və risk-menecment standartlarına vahid tələblər ortaya qoyulmuşdur, eyni zamanda, kiçik və orta sığorta firmaları, həmçinin təkrarsığorta şirkətlərindən ötrü əsasən sadələşdirilmiş standartlar qəbul olunmuşdur. Solvency II metodologiyası üzrə yanaşmalar təkcə Avropa Birliyində yox, həm də ABŞ, Kanada, Yaponiya və digər inkişaf etmiş ölkələrdə geniş tətbiq olunmuşdur. Ümumilikdə, bu metodologiya dünya ölkələrində sığorta sisteminin fəaliyyətinin gücləndirilməsində və təkmilləşdirilməsində, risklərin idarəedilməsi üzrə fəaliyyət strategiyaların hazırlanmasında əsas metodoloji yanaşmalar məcmusu kimi istifadə olunmaqdadır[6].

Cədvəl 1-də Solvency II Direktivinin üç mühüm tələblər məcmusunun qısa məzmununu vermişik.

**Cədvəl 1**

**Solvency II Direktivinin üç mühüm tələblər məcmusunun qısa məzmunu**

| № | Tələblər | Onların qısa məzmunu |
|---|---|---|
| **01.** | **Kəmiyyət tələbləri** | – burada Solvency-II balansının göstəriciləri əsas götürülüb, yəni məcmu kapital, sığorta şirkətinin öz vəsaitlərinin adekvatlığı, həmçinin fəaliyyət hədəfləri, eyni zamanda, sıığorta subyektinin bazar dəyəri və s. daha çox diqqət mərkəzində saxlanılmalıdır. |
| **02.** | **Keyfiyyət tələbləri** | – keyfiyyət tətləbləri sırasında investisiya layihələri, nəzarət funksiyaların təşkili məsələləri, risklərlə bağlı strategiya, korporativ idarəetmə mexanizmləri və s. əsas götürülür. |
| **03.** | **Hesabatlılıq və informasiyaya olan tələblər** | – bu istiqamətdə bir qrup tələblər – hesabatlılıq, dürüstlülük, maliyyə və daxili intizam məsələləri, şəffaflıq prinsipləri prioritetlik təşkil edir və s. |

Mənbə: Cədvəl müəllif tərəfindən işlənmişdir

[5] *Риск-ориентированный подход к регулированию страхового сектора. Ключевые особенности и основные компоненты Solvency II* - *https://www.pwc.ru/en/insurance/assets/solvency-2.pdf.*

[6] *От Базеля II к Solvency II или что такое риск-ориентированный подход к оценке платежеспособности страховщиков: первые шаги на пути внедрения, задачи и перспективы* - *http://www.insur-info.ru/press/125074*

Digər tərəfdən, qlobal maliyyə-iqtisadi transformasiyalardan və sığorta bazarının inkişaf trendlərindən, ölkənin sığorta sisteminin mövcud mexanizmlərinin təkmilləşdirilməsi zərurətindən çıxış etməklə, müasir dövrdə sığorta sisteminin təkmilləşdirilməsinin metodoloji yanaşmları və onların qısa məzmununu ümümiləşdirmişik (cədvəl 2).

**Cədvəl 2**

**Sığorta sisteminin təkmilləşdirilməsinin metodoloji yanaşmaları və onların qısa məzmunu**

| s/s | **Sığorta sisteminin təkmilləşdirilməsinin yanaşmaları metodoloji** | **Metodoloji yanaşmaların qısa məzmunu və mahiyyəti** |
|---|---|---|
| 1. | Dövlət sığorta siyasətinin qlobal çağırışlara adekvatlığının təmin olunması | – ilk növbədə, mövcud sığorta siyasətinin və mexanizmlərinin maksimum təkmilləşdirilməsi, sığorta siyasətinin adekvatlığına nail olunması;<br>– sığorta sisteminin işlək mexanizmlərinin hazırlanması və tətbiqi. |
| 2. | Dövlət tərəfindən sığorta bazarının dəstəklənməsi mexanizmləri | – sığorta fəaliyyətinin stimullaşdırılması və maliyyə xidmətləri bazarının inkişafı çərçivəsində sığorta seqmentinin rolunun artırılması tədbirləri;<br>– sığorta şirkətlərinin maliyyə sabitliyinin dəstəklənməsi;<br>– sığorta xidmətləri bazarında sağlam rəqabət mühitinin təmin edilməsi. |
| 3. | Sığorta sisteminin işləkliyini təmin edən qanunvericilik bazasının yaradılması və hüquqi-iqtisadi əsasların gücləndirilməsi, qaydaların və normativlərin işlənməsi, təsdiqi | – sığorta subyektlərinin fəaliyyətində kapitala və ehtiyat resurslarına olan tələblərin müəyyənləşdirilməsi;<br>– sığorta xidmətlərinin standartlarının işlənməsi və meyarların optimallığı;<br>– sığorta xidmətlərinə əlçatanlıq mühitinin yaradılması. |
| 4. | Sığorta portfelinin strukturunun adekvatlığı və optimallığı | – sığorta bazarına çıxarılan sığorta xidmətlərinin tələb və təklifə uyğunluğu;<br>– sığorta portfelində yer almış sığorta xidmətlərinin göstərilməsi mexanizmlərinin qaydaları və işləkliyi;<br>– sığorta portfelindən investisiya təyinatlı fəaliyyət istiqamətlərinin mövcudluğu. |
| 5. | Sığorta bazarına nəzarət sisteminin işləkliyi və səmərəliliyi | – sığorta bazarına nəzarət sisteminin qərəzsiz və obyektiv olması;<br>– sığorta fəaliyyətinə nəzarət mexanizmlərinin və alətlərinin səmərəlilik sviyyəsinin təmin edilməsi və s. |

Mənbə: Cədvəl müəllif tərəfindən işlənmişdir

Dünya sığorta sisteminin institusional təhlilindən yanaşdıqda, 3 mühüm sığorta sisteminin daha çox dövlətlər tərəfindən tətbiq olunduğunu və geniş yayıldığını görmək mümkündür: 1) dövlət modeli; 2) özəl-dövlət modeli və 3) işəgötürənlərin məsuliyyəti əsasında

formalaşdırılan sığorta modeli[7]. Dövlət sığorta modeli daha çox sosial müdafiə təyinatlıdır və əsas etibarı ilə istehsal sahələrində, həmçinin peşəkar xəstəliklərlə bağlı yaranan sığorta hallarında istifadə olunur. Özəl-dövlət qarışıq sığorta modeli isə daha çox tətbiq olunan sığorta növlərindən biri kimi, sığorta paketlərinin reallaşdırılması vasitəsilə həyata keçirilir və bu halda nəzarət, həm də hüquqi-normativ əsasların formalaşdırılması vəzifəsi dövlətin üzərinə düşür. İşə götürənlərin məsuliyyəti əsasında tətbiq olunan sığorta modeli korporativ maraqları ehtiva edir və iqtisadi subyektlər öz əməkdaşlarının sığortalanmasında maraqlı olurlar.

İşin **"Azərbaycanda sığorta sisteminin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi"** adlı **ikinci fəslində** ölkədə sığorta sisteminin mövcud vəziyyətinin təhlili, maliyyə xidmətləri bazarının inkişafı konteksində sığorta sisteminin səmərəlilik problemlərinin tədqiqi, Azərbaycanda iqtisadi islahatların dərinləşdirilməsində sığorta fəaliyyətinin multiplikativ təsirinin qiymətləndirilməsi verilmişdir.

Azərbaycanda sığorta sisteminin mövcud vəziyyətini təhlil edərkən, obyektivliyi qorumaq və yaranmış yeni reallıqları nəzərə almaq üçün daha çox son beş ilin göstəricilərini – 2018-2022-ci illər üzrə statistik göstəriciləri təhlil etməyi məqsədəuygun saymışıq. Fikrimizcə, analoji yanaşma sığorta bazarı və sığorta fəaliyyəti ilə bağlı daha balanslaşdırılmış mənzərənin formalaşdırılmasına və ifadəsinə imkan verə bilər. Ölkədə 01.01.2023-cü ilə tarixə 34 sığorta təşkilatı fəaliyyət göstərir və bunlardan 15-i qeyri-həyat sığortası üzrə ixtisaslaşmışdır. 2015-2022-ci illərdə fəaliyyət göstərən sığorta təşkilatlarının cəmi aktivləri 55 %-dən çox artmış və 2022-ci ildə bu göstərici 1633,4 mln. manat səviyyəsində olmuşdur. 2019-cu illə müqayisədə isə artım 15,9 %-ə yaxın olmuşdur, amma 2020-ci ildə cəmi aktivlərin azalması baş vermişdir və bunun başlıca səbəbini COVİD -19 pandemiyası ilə izah etmək olar (3,5 %) (şəkil 1).

---

[7]*Куклина, Т.В. Модели страхования профессиональных рисков в зарубежных странах // Вопросы инновационной экономики. – 2020. Том 10. № 2. – s. 725.*




**Şəkil 1. Azərbaycanda 2015-2022-ci illərdə fəaliyyət göstərən sığorta təşkilatlarının cəmi aktivləri, mln. manat (ARDSK-nın məlumatları əsasında hazırlanmışdır).**

Şəkil 2-də Azərbaycanda 2015-2022-ci illər üzrə sığorta müqavilələrinin sayı və onların siniflər üzrə bölgüsü öz əksini tapmışdır. Sığorta müqavilələrinin dinamikasına nəzər salsaq, görərik ki, 2015-2022-ci illərdə sığorta müqavilələrinin sayı 69,1 % artmış və 2022-ci ildə 3472,9 min ədəd səviyyəsində olmuşdur.




**Şəkil 2. Azərbaycanda 2015-2022-ci illər üzrə sığorta müqavilələrinin sayı və onların siniflər üzrə bölgüsü, min ədəd**

*Mənbə: ARDSK-nın rəsmi nəşrləri üzrə hazırlanmışdır. (http://www.stat.gov.az).*

Şəkil 3-də Azərbaycanda 2015-2022-ci illərdə sığorta müqavilələri üzrə sığorta haqlarından daxilolmaların ümumi məbləği təhlil olunmuşdur və 2020-ci ildə sığorta müqavilələrinin sayının azalmasına baxmayaraq, sığorta haqlarından daxil olmaların ümumi məbləği azalmamış (794,8 mln. manat), əksinə – 7,3 % artım təşkil etmişdir. Təhlil olunan dövr ərzində sığorta haqlarından daxil olmaların ümumi məbləği (1003.9 mln. manat)  2 dəfədən çox artım təşkil etmişdir.




**Şəkil 3. Azərbaycanda 2015-2022-ci illərdə sığorta müqavilələri üzrə sığorta haqlarından daxilolmaların ümumi məbləği, mln. manat**
*Mənbə: ARDSK-nın rəsmi nəşrləri üzrə hazırlanmışdır. (http://www.stat.gov.az).*

Şəkil 4-də Azərbaycanda 2015-2022-ci illərdə sığorta ödənişlərinin ümumi məbləği təhlil olunmuşdur. Həmin dövr ərzində ölkəmizdə sığorta ödənişlərinin ümumi məbləği 2,4 dəfə artmış və 2022-ci ildə 442,1 mln. manat səviyyəsində olmuşdur.




**Şək.4. Azərbaycanda 2015-2022-ci illərdə sığorta ödənişlərinin ümumi məbləği, mln. man**

*Mənbə: ARDSK-nın rəsmi nəşrləri üzrə hazırlanmışdır. (http://www.stat.gov.az).*

Azərbaycanda 2012-2022-ci illər üzrə ümumi sığorta haqlarından daxilolmaların ümumi daxili məhsulda payı şəkil 5-dəkı kimidir. Əgər 2012-cu ildə bu göstərici 0,57 % idisə, 2015-ci ildə 0,89 %, 2022-ci ildə isə 0.75 % səviyyəsində qeydə alınmışdır. 2020-ci ildə isə nəzərəçarpacaq artım olmuşdur. Burada sığorta sektorunun töhfəsi ÜDM-in 1,10%-nə çatmışdır.




**Şəkil 5. Azərbaycanda 2012-2022-ci illər üzrə ümumi sığorta haqlarından daxilolmaların ümumi daxili məhsulda payı, %**

*Mənbə: ARDSK-nın rəsmi nəşrləri üzrə hazırlanmışdır. (http://www.stat.gov.az).*

Azərbaycanda sığorta bazarının konsentrasiya dərəcəsinin müəyyənləşdirilməsi hesabına ümumilikdə ölkənin sığorta sisteminin adekvatlığını, inkişaf səviyyəsini, sistem xarakterli problemlərin olmasını, xüsusilə, bazarda inhisarçılıq halının üstünlük təşkil etməsini aydınlaşdırmaq mümkündür. Bunun üçün hazırda fəaliyyət göstərən 20 sığorta şirkətinin göstəricilərindən istifadə olunmuşdur və bunlar öz əksini cədvəl 3-də tapmışdır. Həmin cədvəldə 2022-ci ilin yekunu üzrə sığorta şirkətlərinin sığorta haqları üzrə faktiki məbləğlərindən və sığorta bazarında tutduğu xüsusi çəkidən istifadə olunmuşdur. Herfindahl-Hirschman Əmsalının (HHƏ) hesablama metodikasına əsasən müvafiq hesablama aparılmışdır:

$$HHƏ = (XÇ^1 + XÇ^2 + ... + XÇn^2) \text{ və yaxud } \sum_{i=1}^{n} XÇ_{ji}^2$$

burada,

$XÇ^1$, $XÇ^2$,..., $XÇn^2$ - sığorta şirkətlərinin xidmətlərinin həcminin ümumi sığorta bazarda xüsusi çəkisinin kvadratı.

n – sığorta şirkətlərinin sayı;

j – sığorta şirkətinin HHƏ-ı;

i – şırkətin sığorta haqlarının ümumi sığorta haqlarında payı.

Hesablama baza məlumatlar üçün Azərbaycanın 20 sığorta şirkətinin göstəriciləri bu düsturda olduğu kimi hesablanır.

$$HHƏ = (XÇ^1 + XÇ^2 + ... + XÇn^{20})$$

**Cədvəl 3**

**2022-ci ilin yekunu üzrə sığorta şirkətlərinin sığorta haqları üzrə faktiki məbləğləri və sığorta bazarında tutduğu xüsusi çəkisi üzrə göstəricilər**

| S/S | Sığortaçının adı | Sığorta Haqqları | Şirkətlərin sığorta bazarında xüsusi çəkisi (XÇ), %-lə | Şirkətlərin sığorta bazarında xüsusi çəkisinın kvadratı ($XÇ^2$) |
|---|---|---|---|---|
| 1. | “A-Qroup Sığorta Şirkəti” ASC | 24,628 | 2.45 | 6.02 |
| 2. | “AtaSığorta” ASC | 5,312 | 0.53 | 0.28 |
| 3. | “Atəşgah Həyat” Sığorta Şirkəti ASC | 53,466 | 5.33 | 28.37 |
| 4. | “Atəşgah” Sığorta Şirkəti ASC | 29,761 | 2.96 | 8.79 |
| 5. | Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti | 16,433 | 1.64 | 2.68 |
| 6. | “Azərbaycan Sənaye Sığorta” ASC | 14,464 | 1.44 | 2.08 |
| 7. | “AzSığorta” ASC | 11,081 | 1.10 | 1.22 |
| 8. | “Bakı Sığorta” ASC | 6,344 | 0.63 | 0.40 |
| 9. | “Günay Sığorta” ASC | 7,936 | 0.79 | 0.63 |
| 10. | “İpək Yolu Sığorta” ASC | 20,520 | 2.04 | 4.18 |
| 11. | “Meqa Sığorta” ASC | 21,129 | 2.10 | 4.43 |
| 12. | "Naxçıvansığorta" ASC | 2,333 | 0.23 | 0.05 |
| 13. | “Paşa Həyat Sığorta” ASC | 413,298 | 41.17 | 1694.95 |

| | | | | |
|---|---|---|---|---|
| 14. | “Paşa Sığorta” ASC | 215,132 | 21.43 | 459.24 |
| 15. | “Qala Həyat” Sığorta Şirkəti ASC | 21,242 | 2.12 | 4.48 |
| 16. | “Qala Sığorta” ASC | 40,355 | 4.02 | 16.16 |
| 17. | "Xalq Həyat" Sığorta Şirkəti ASC | 8,574 | 0.85 | 0.73 |
| 18. | “Xalq Sığorta” ASC | 42,274 | 4.21 | 17.73 |
| 19. | "Aqrar Sığorta" ASC | 14,136 | 1.41 | 1.98 |
| 20. | “Meqa Həyat Sığorta” ASC | 2,404 | 0.24 | 0.06 |
| **2022-ci il üçün 20 şirkət üzrə sığorta haqlarının cəmi - 1,003,888 manat** | | | | **2254,4 (HHƏ = $\sum_{i=1}^{n} XÇ_{ji}^{2}$)** |

HHƏ 3 bazar tipi üzrə konsentrasiya və əmsalı müəyyənləşdirir: 1) yüksək konsentrasiya olunmuş bazarlar (2000< HHƏ ≤ 10000), burada rəqabət inkişaf etməyib və ya yoxdur, inhisarçılıq dominant rol oynayır; 2) orta konsentrasiya olunmuş bazarlar (1000< HHƏ < 2000), burada rəqabət vardır, amma lazimi səviyyədə inkişaf etməmişdir və 3) zəif konsentrasiyalı bazarlar (HHƏ < 1000), burada rəqabət yüksəkdir və inhisarçılıq statusunda olan subyektlər yoxdur.

Alınmış nəticəni Herfindahl-Hirschman Əmsalından (2000< HHƏ ≤ 10000 diapazonda olan yüksək konsentrasiya olunmuş bazarlar) baxsaq, faktiki nəticə 2254.44 olduğundan, qeyd etmək mümkündür ki, Azərbaycanın sığorta bazarında rəqabət mühiti kifayət qədər inkişaf etməmişdir və bu bazarın subyektlərinin rəqabət qabiliyyətinə inhisarçılıq təsir edir.

Azərbaycanın maliyyə xidmətləri bazarının inkişaf kontekstində sığorta sisteminin səmərəlilik göstəriciləri toplusunu müəyyənləşdirməyə çalışmışıq (cədvəl 4).

**Cədvəl 4**

**Azərbaycanın maliyyə xidmətləri bazarının inkişaf kontekstində sığorta sisteminin səmərəlilik göstəriciləri toplusu və onların bal ifadəsi metodikası**

| s/s | Göstəricilər | Bal ifadəsi |
|---|---|---|
| 01 | Sığorta sisteminin qanunvericilik bazasının təkmilliyi və adekvatlığı | 5-10 |
| 02 | Sığorta sisteminin idarəetmə və nəzarət mexanizmlərin optimallığı | 5-10 |
| 03 | Ölkə ÜDM-də sığorta xidmətlərinin xüsusi çəkisi | 5-10 |
| 04 | Sığorta xidmətləri portfelinin diversifikasiyalaşdırılması dərəcəsi | 5-10 |
| 05 | Sığorta şirkətlərinin ölkə iqtisadiyyatına investisiyaların həcmi | 5-10 |
| 06 | Sığorta bazarının infrastrukturunun inkişaf səviyyəsi | 5-10 |
| 07 | Sığorta şirkətlərinin maliyyə sabitliyi və dayanıqlılığı səviyyəsi | 5-10 |
| 08 | Sığorta bazarının qlobal risklərə və təhdidlərə immunitetlik səviyyəsi | 5-10 |
| 09 | Milli maliyyə xidmətləri bazarının beynəlxalq maliyyə bazarına inteqrasiyası | 5-10 |
| 10 | Milli sığorta bazarının dünya sığorta bazarına inteqrasiyası | 5-10 |
| **Yekun bal: $Y_b = \sum_{i=1}^{n=10} G_n$** | | |

Mənbə: Cədvəl müəllif tərəfindən hazırlanmışdır.

Ölkənin maliyyə xidmətləri bazarının inkişaf hədəfləri və prioritetləri kontekstində milli sığorta sisteminin səmərəliliyinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi Cədvəl 4-də verilmiş göstəricilər üzrə aşağıdakı düstür üzrə hesablanıla və qiymətləndirilə bilər:

$$\mathbf{Y_b} = \sum_{i=1}^{n=10} \boldsymbol{G_n}$$

burada, $Y_b$ – yekun bal

n – sığorta sistemini səmərəlilik göstəricisinin sıra sayı

$G_n$ – sığorta sistemini $n$-ci səmərəlilik göstəricisi

Faktiki yekun balların qiymətləndirilməsində 3 səmərəlilik dərəcisindən istifadə olunması təklif edilir:

I Səmərəlilik dərəcəsi – 91-100 bal – belə olduğu halda, sığorta sisteminin səmərəlilik səviyyəsi adekvat hesab edilir və sığorta xidmətləri bazarı inkişaf etmiş səviyyədə qiymətləndirilir;

II Səmərəlilik dərəcəsi – 71-90 bal – bu səviyyədə olduqda milli sığorta sisteminin inkişaf problemləri olsa da, ümumən bu sistem işləkdir, amma təkmilləşdirmələrə və tənzimləyici tədbirlərin görülməsinə ehtiyac vardır, sığorta xidmətlərinin diversifikasiyalaşdırılmasına diqqət artırılmalıdır;

III Səmərəlilik dərəcəsi – 51-70 bal – bu halda milli sığorta sistemində ciddi problemlər vardır, mövcud mexanizmlər qeyri-səmərəlilik nümayiş etdirir, sığorta xidmətlərinin göstərilməsində bürokratik baryerlər çoxdur, bu xidmətlərin əlçatanlıq səviyyəsi aşağıdır, sığorta fəaliyyəti subyektləri ilə sığorta olunanlar arasında etimad mühiti zəifdir və s.

Dissertasiya işinin **"Azərbaycanda sığorta sisteminin tənzimlənməsi və təkmilləşdirilməsi istiqamətləri"** adlı **üçüncü fəsildə** Azərbaycanda sığorta sisteminin hüquqi və iqtisadi tənzimlənməsi prioritetləri, ölkənin sığorta şirkətlərinin fəallığının gücləndirilməsi istiqamətləri və işğaldan azad olunmuş ərazilər nəzərə alınmaqla və postpandemiya dövründə sığorta sisteminin təkmilləşdirilməsi yolları verilmişdir.

Müasir şəraitdə sığorta şirkətlərinin daha dayanıqlı olması və onların sığorta bazarında rəqabətqabiliyyətlilik nümayiş etdirməsi üçün əsaslandırılmış və üzaq perspektivə hesablanmış fəaliyyət strategi-

yasının işlənməsi və bir fəaliyyət proqramı kimi qəbul olunması səmərəli ola bilərdi. Qlobal risklər və təhdidlər şəraitində sığorta şirkətlərinin fəallığının gücləndirilməsinin strateji istiqamətlərinin blok-sxemini şəkil 6-da vermişik.

Şəkil 6-dan yanaşdıqda, qeyd etmək mümkündür ki, göstərilən elementlər və meyarların qorunduğu, əməl olunduğu halda sığorta şirkətlərinin fəaliyyətində önəmli irəlliləyişlər və uğurlu nəticələr əldə etmək potensialı formalaşdırmaq olar.




**Şəkil 6. Qlobal risklər və təhdidlər şəraitində sığorta şirkətlərinin fəallığının gücləndirilməsinin strateji istiqamətlərinin blok-sxemi**
*(müəllif tərəfindən hazırlanmışdır).*

Hazırda işğaldan azad olunmuş ərazilərdə aparılan geniş miqyaslı və iri həcmli infrastruktur, sosial və istehsal layihələri, sənaye sahələrinin yaradılması, yaşayış massivlərinin salınması, ümumilikdə 11 respublika və beynəlxalq əhəmiyyətli nəqliyyat layihələrinin reallaşdırılması işləri intensiv xarakter daşımaqdadır.Ölkə Prezidentin 7 iyul 2021-ci il tarixli fərmanı ilə iqtisadi rayonların strukturu dəyişdirilmiş və işğaldan azad olunmuş ərazilərdə tarixi-iqtisadi qanunauyğunluqlar nəzərə alınmaqla, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır[8]. Bu rayonların hər birinin çox güclü inkişaf perspektivləri və potensialı vardır. Qarabağın hava qapısı olan Füzüli Beynəlxalq Hava Limanının istismara verilməsi və Ağdam rayonunda Ağdam Sənaye Parkının yaradılması, Cəbrayıl rayonunda isə "Araz Vadisi İqtisadi Zonası"nın təşkilinə başlanılması təkcə regionda yox, həm də ölkəmizdə iqtisadi inkişaf proseslərinin yeni mərhələyə keçməsi, əlavə dəyər mənbələrinin diversifikasiyalaşdırılması, əlavə maliyyə mənbələrinin yaradılması anlamına gəlir və bu iqtisadi rayonlarda sığorta xidmətlərinin strukturunun diversifikasiyalaşdırılması potensialı böyükdür.

Beləliklə, ölkəmizdə yaxın perspektivdə sığorta sisteminin təkmilləşdirilməsi yollarını ümumiləşdirməyə çalışmışıq:

- yaxın perspektivdə ölkəmizdə sığorta sisteminin qlobal təhdidlərə və risklərə adekvat olaraq tənzimlənməsi məqsədilə, mövcud sığorta fəaliyyəti mexanizmlərinin maksimumu təkmilləşdirilməsi və ya yenilənməsi tədbirləri görülməlidir;
- daha mütərəqqi və məhsuldar sığorta mexanizmlərinin işlənməsi və tətbiqi üçün ölkəmizdə sığorta qanunvericiliyindəki boşluqların aradan qaldırılması, xüsusilə sığorta hadisələri üzrə ödənişlərin hüquqi əsaslarının gücləndirilməsi vacibdir;
- sığorta bazarının genişləndirilməsi, sığorta bazarı iştirakçılarının hüquqlarının və maraqlarının maksimumu qorunması, əsas etibarı ilə sığorta bazarında sağlam rəqabət mühitinin təmin olunması tədbirləri həyata keçirilməlidir;

---

[8] *Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.*

– ölkədə mövcud sığorta ödənişi tariflərinin əlçatanlıq səviyyəsi yenidən qiymətləndirilməli, çevik və müştəri məmnunluğuna cavab verən tarif siyasəti formalaşdırılmalı və sığorta ödənişləri proseslərindəki nöqsanlar aradan qaldırılmalıdır;
– müasir qlobal təhdidlərin artığı bir dövrdə sığorta şirkətləri tərəfindən iqtisadi inkişaf proseslərindən qaynaqlanan və insanların fəaliyyəti ilə bağlı olaraq formalaşan müxtəlif xarakterli risklərin sistemli və kompleks şəkildə öyrənilməsi mexanizmlərinin təkmilləşdirilməsi və risk-menecmentin peşəkarlıq səviyyəsinin artırılması tədbirləri reallaşdırılmadır;
– ölkənin sığorta bazarının dinamik inkişaf etməsi, daha uğurlu şəkildə regional və dünya bazarlarına inteqrasiya olunması, potensial investorlar üçün cəlbedicilik mühitinin yaradılaması, işğaldan azad olunmuş ərazilərdə dünya təcrübəsinə uyğun çevik və çoxfunksiyalı sığorta modelinin tətbiq edilməsi və sığorta xidmətlərinin göstərilməsi xüsusi diqqət mərkəzində saxlanılmalı, adekvat addımlar atılmalıdır.

**Dissertasiyanın "Nəticə" bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr verilmişdir:**

Azərbaycanda sığorta sisteminin tənzimlənməsi və təkmilləşdirilməsi ilə bağlı vacib hüquqi-iqtisadi məsələlər baxılmış, sığorta şikətlərinin fəallığının artırılması, işğaldan azad olunmuş ərazilər və postpandemiya dövrünün postulatları nəzərə alınmaqla ölkəmizin sığorta sisteminin təkmilləşdirilməsi yollarının müəyyənləşdirilməsi istiqamətində tövsiyələr və təkliflər vermişik:

1. Sığorta sisteminin ölkə iqtisadiyyatında rolu və onun inkişaf etdirilməsinin nəzəri yanaşmalarına müasir baxışların vacibliyini bildirərək, bu qənaətə gəlirik ki, sığorta fəaliyyəti sosial-iqtisadi proseslərdə kifayət qədər səmərəli funksiyaları yerinə yetirir və bunların içərisində daha çox fərqlənən funksiyalar kimi müxtəlif risklər üzrə zərər çəkmiş sığortalanmış subyektlərin itkilərinin kompensasiya olunması və xəbərdarlıq funksiyası hesabına sığorta risklərinin mənfi fəsadlarının azaldılması tədbirlərinin görülməsi və maliyyələşdirilməsi diqqət çəkirlər. Sığorta iqtisadi proseslərin və fəaliyyətin güvənli şəkildə təşkilinə, bu proses iştirakçılarının əmlaklarının və digər

vasitələrinin fors-major hadisələrin mənfi nəticələrindən qorunmasında mühüm önəm kəsb edir.

2. Sığortanın və sığorta sisteminin daha çox diqqət çəkən anlayışlarına və elementlərinə, müxtəlif təyinatlı sığortalama fəaliyyəti mexanizmlərini, sığorta lisenziyasını, sığorta edilən fiziki və hüquqi şəxslərin sığorta müqaviləsinin vacib tərəfdaşlarından biri kimi olmasını, sığorta edən subyektin sığorta bazarının mühüm iştirakçı statusunu daşımasını, həyat və qeyri-həyat sığorta növlərinin sığorta bazarında geniş yayılmasını aid edə bilərik.

3. Müasir qlobal transformasiyalar dövründə sığorta sisteminə bir qrup metodoloji yanaşmaları xüsusi diqqət mərkəzində saxlamağı vacib sayırıq: 1) sığorta sisteminin təşkili üzrə dövlət siyasətinin müasir çağırışlara adekvatlığı; 2) sığorta fəaliyyətinin təşkilində komplekslilik prinsipinin qorunması; 3) sığorta bazarında sistemlilik prinsipinin təmin edilməsi; 4) sığorta fəaliyyətinin səmərəlilik prinsipi; 5) sığorta sisteminin şəffaflığı; 6) sığorta portfelinin diversifikasiyalaşdırılmasının prioritetliyi; 7) sığorta fəaliyyətində risklər üzrə metodikanın işlənməsi və təkmilləşdirilməsi tədbirlərinin görülməsi və s.

4. Sığorta sisteminə və sığorta fəaliyyəti subyektlərinin dayanıqlılığına, maliyyə sabitliyinə, götürdükləri öhdəliklərə sadiqliyinə olan tələblərin beynəlxalq standartlara uyğunlaşdırılması və bununla bağlı olaraq ciddi nəzarət sisteminin təmin edilməsi sistemli şəkildə həll edilməlidir. Hesab edirik ki, beynəlxalq səviyyədə qəbul olunmuş Solvency II direktivinin 3 mühüm tələbləri çərçivəsində ölkəmizin sığorta sisteminin adekvatlığını və sığorta şirkətlərinin dayanıqlılığını, dürüstlüyünü müəyyənləşdirən mexanizm işlənməli və mövcud tələblərin yenilənməsi, qaydaların və normativlərin təkmilləşdirilməsi tədbirləri görülməlidir.

5. Bizə görə, Azərbaycan Cənubi Koreyanın və Çinin sığorta sisteminin təşkili üzrə təcrübəsindən daha uğurlu yararlanmaq imkanına malikdir. Belə ki, Cənubi Koreyanın sığorta sistemi rəqabət qabiliyyətinə görə dünyada ilk onluqda yerləşir və universallıq xüsusiyyətləri ilə seçilir, xüsusilə qlobal pandemiya dövründə çevik sığorta xidmətlərinin tətbiqinə nail olunmuşdur. Çinin sığorta sistemi isə güclü və çevik manevr etmək xüsusiyyətlərinə malikdir və qlobal sığorta bazarında intensiv inkişaf edən sığorta şirkətləri bu ölkəni təmsil

edirlər. Qarışıq iqtisadiyyata malik olmasına baxmayaraq sığorta bazarının 74 %-i özəl sığorta şirkətlərinə aiddir. Çində sığorta fəaliyyətinin çevikliyinin təmin olunması üçün internet- sığorta mexanizmi işlənmiş, cloud, blokçeyn və Big Data texnologiyalarından geniş istifadə mühiti yaradılmışdır. Bu qeyd olunanlar əsas götürülməklə, ölkəmizdə sığorta sisteminin inkişaf etdirilməsində Cənubi Koreya və Çinin sığorta sisteminin inkişaf etdirilməsi və təkmilləşdirilməsi üzrə təcrübəsinə önəm verilməsi məqsədəuyğundur.

6. 2023-cil il yanvar ayının 1-nə olan məlumata görə, ölkədə fəaliyyət göstərən 20 sığorta şirkətinin formalaşdırdığı sığorta bazarında sağlam rəqabət mühitinin yüksək səviyyədə olmasını demək çətindir. Bunun əsas səbəbi 4 iri sığorta şirkətinin “Atəşgah” SŞ ASC, “Atəşgah Həyat” SŞ ASC, “Paşa Həyat Sığorta” ASC və “Paşa Sığorta” ASC-nin 2022-ci ilin yekununda sığorta haqlarının ümumi dəyərində cəmi paylarının 73.3 % təşkil etməsidir, bu isə inhisarçılığın əsas göstəricilərindən biri kimi qiymətləndirilməlidir. Hesab edirik ki, ölkənin sığorta bazarının cəlbediciliyinin artırılması və sığorta sisteminin səmərəli işləkliyinin təmin edilməsi məqsədilə sağlam rəqabət mühitinin yaradılması tədbirləri görülməli, sığorta bazarı iştirakçılarının maliyyə mexanizmlərinin gücləndirilməsi, maliyyə resurslarına çıxışlarının asanlaşdırılması və sığorta şirkətlərinin maliyyə sabitliyinin artırılması prioritetləri ön plana çıxmalıdır.

7. Sığorta ödənişlərinin ümumi sığorta haqlarında cəmi ilə bağlı qeyri-mütənasibliyin tənzimlənməsinə xüsusi diqqət yetirilməsinin vacibliyini bildiririk. Bu mühüm məsələnin bəlli və optimal mexanizminin olması tələb edilir və sığorta şirkətlərinə inamın artırılmasında sığorta ödənişlərinin mühüm əhəmiyyət kəsb etməsi xüsusilə nəzərə alınmalıdır.

8. Ölkənin sığorta şirkətlərinin hüquqi-iqtisadi mexanizmlərinin maksimum qlobal təhdidlər kontekstində tənzimlənməsi, mövcud qanunvericilik aktlarının təkmilləşdirilməsi və sığorta şirkətlərinin maliyyə sabitliyinin gücləndirilməsinə imkan verən maliyyə-investisiya mənbələrinin formalaşdırılması proseslərinin stimullaşdırılması, xarici investorların ölkəmizin sığorta bazarına marağının artırılması məsələlərinə prioritet yanaşmaların ortaya qoyulmasını və fəaliyyət

mexanizmlərinin işlənərək sığorta bazarı dövriyyəsinə daxil edilməsini vacib hesab edirik.

9. Sığorta şirkətlərinin sığorta bazarında fəallığının intensivləşdirilməsi və ümumilikdə ölkənin sığorta sisteminin mövcud mexanizmlərinin səmərəli şəkildə təkmilləşdirilməsi məqsədilə, sığorta bazarının problemlərinin sistemləşdirilməsi, bazarın inkişafına mane olan halların müəyyənləşdirilməsi, regional və beynəlxalq sığorta bazarlarına daha fəal çıxmalarının təmin olunması, yeni və cəlbedici sığorta xidmətləri portfelinin formalaşdırılması tədbirləri ardıcıl xarakter daşımalıdır.

10. Postpandemiya şəraitində və işğaldan azad olunmuş ərazilərin bərpası proseslərində, xüsusilə, yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişaf prioritetləri kontekstində, yaxın perspektivdə ölkəmizdə sığorta sisteminin maksimum təkmilləşdirilməsi, milli-iqtisadi prioritetlərin hədəfləri də nəzərə alınmaqla əsaslandırılmış addımların atılması, qlobal risklərə adekvat olan sığorta fəaliyyəti subyektlərinin yaradılması, mövcud sığorta şirkətlərinin rəqabət qabiliyyətinin artırılması, sığorta bazarının fəallığının stimullaşdırılması, güzəştlərin verilməsi, beynəlxalq təcrübədən irəli gələn sığorta yanaşmalarının nəzərə alınması və ümumilikdə ölkənin sığorta sisteminin gücləndirilməsi tədbirləri görülməlidir və s.

**Dissertasiya işinin əsas müddəaları aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**


1. İqtisadi islahatlar şəraitində sığorta sisteminin təkmilləşdirilməsi problemləri və istiqamətləri// “Elmi Əsərlər” jurnalı (AMEA İqtisadiyyat İnstitutu), Bakı. 2019. №01. – s.112-118.
2. Kiçik və orta sahibkarlığın inkişafında sığorta xidmətlərinin rolunun artırılımasının strateji əhəmiyyəti / “Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri” mövzusunda Respublika elmi konfransının materialları. Sumqayıt Dövlət Universiteti. 25-26 aprel 2019-cu il. – s.292-295.
3. Azərbaycanda iqtisadi islahatlar dövründə sığorta sisteminin inkişafının aktual problemləri // AMEA-nın “Xəbərlər” jurnalı, Bakı. 2019. №06. – s.144-152.

4. Azərbaycanda iqtisadi islahatlar şəraitində sığorta sisteminin tənzimlənməsi və gücləndirilməsi məsələləri // “Geostrategiya” jurnalı, Bakı. 2020. № 03-04. – s. 62-66.
5. Azərbaycanda sığorta xidmətlərinin genişləndirilməsində xarici-iqtisadi əməkdaşlığın əhəmiyyəti / “İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər”. Beynəlxalq elmi konfransın materialları. Sumqayıt Dövlət Universiteti. 8-9 iyul 2020-ci il. – s.167-171.
6. Qeyri-neft sektorunun infrastrukturundan səmərəli istifadədə edilməsində sığorta sisteminin rolu/ “Azərbaycanın tranzit potensialının iqtisadi inkişafda rolu” mövzusunda Respublika elmi konfransının materialları. Sumqayıt Dövlət Universiteti. 22-23 oktyabr 2020-ci il. – s.102-105.
7. Postpandemiya dövründə və postkonflikt şəraitində sığorta fəaliyyətinin multiplikativ təsirinin qiymətləndirilməsi // “Geostrategiya” jurnalı, Bakı, 2021, № 04. s.139–143.
8. Azərbaycanda iqtisadi islahatlar şəraitində sığorta sisteminin inkişafının nəzəri-metodoloji aspektləri // “Kooperasiya” elmi-praktik jurnal, Bakı. 2021. № 2(61). – s.173-181.
9. Aqrar sığorta münasibətlərinin inkişafı və sığorta şirkətlətərinin fəallığının artırılması // “Kənd təsərrüfatının iqtisadiyyatı” jurnalı. Bakı, № 4 (38), 2021, s. 103-112.
10. Оценка эффективности системы страхования в Азербайджане в постпандемическом периоде / Сборник материалов IV Международной научно-практической Конференции. «Современные проблемы цивилизации и устойчивого развития в информационном обществе». г. Москва, 24 сентября 2021 года. – с.95-102.
11. Направления совершенствования системы страхования в Азербайджане в условиях интенсификации экономических реформ// Журнал «Финансовая экономика», Москва. 2021. №09. – с.65-70.



Dissertasiyanın müdafiəsi “24” yanvar 2024-cü il tarixində saat 15:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat “22” december 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: “06” dekabr 2023
Kağızın formatı: 60x84
Həcm: 46627 işarə
Tiraj: 100 ədəd